Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “___”“________” 2023-cü il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# Əmək müqaviləsi bildirişinin qeydiyyata alınması və bu barədə işəgötürənə və işçilərə məlumat verilməsi xidmətinin

## PASPORTU

**Xidmətin adı:**

- Əmək müqaviləsi bildirişinin qeydiyyata alınması və bu barədə işəgötürənə və işçilərə məlumat verilməsi

**Xidmətin məzmunu:**

- Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınması və bu barədə işəgötürənə və işçilərə elektron qaydada məlumat göndərilməsi

**Xidmətin aid olduğu təsnifat:**

- Əmək münasibətləri

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (Nazirlik) yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (Xidmət)
- Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)

**Xidmətin hüquqi əsası:**

- Azərbaycan Respublikasının Əmək Məcəlləsi
- Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”
- “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı

- “Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar”ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı

**Xidmətin həyata keçirilmə formaları:**

- Elektron qaydada

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

- Elektron qaydada
- Çağrı mərkəzi vasitəsilə
- Birbaşa (yerində)
- Poçt vasitəsilə

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

- Əmək müqaviləsi bildirişi qeydiyyata alınır və bu barədə işəgötürənə və işçilərə məlumat verilir

**Xidmət istifadəçisi barədə məlumat:**

- Azərbaycan Respublikasının vətəndaşları
- Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər
- Hüquqi şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

- Müddət: 1 (bir) iş günündən gec olmayaraq
- Xidmət haqqı: Ödənişsiz

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

- Elektron qaydada 7/24
- Digər hallarda iş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

- Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi (MEİS)
- Xidmətin Aparatı və regional şöbələrinin inzibati binası

- “DOST” mərkəzlərinin və filiallarının inzibati binası

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

- Yoxdur

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

- şəxsiyyəti təsdiq edən sənədin surəti (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayış hüququ verən icazə vəsiqəsinin surəti)
- İşəgötürənin gücləndirilmiş elektron imzası
- Müraciət nümayəndə vasitəsilə edildikdə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənəd
- Xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri elektron qaydada əldə etmək mümkün olmadıqda kağız üzərində təqdim edilir

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

- Əmək müqaviləsi bildirişinin qeydiyyata alınması:
  İşəgötürən (və ya onun səlahiyyətli nümayəndəsi) gücləndirilmiş elektron imza ilə MEİS-in “Əmək müqaviləsi bildirişi” altsisteminə daxil olur və imzalanmış əmək müqaviləsinə dair məlumatları sistemə daxil edir. Sistem tərəfindən əmək müqaviləsi bildirişi qeydiyyata alınır

Əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə məlumat sistem tərəfindən işəgötürənə təqdim edilir

- Əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı zəruri məlumatların “Əmək müqaviləsi bildirişi ” altsisteminə daxil edilməsi üçün müvafiq köməklik göstərilir
- Əmək müqaviləsinin qüvvəyə minməsi barədə bildiriş çap edilərək işəgötürənə təqdim olunur

İşçi müvafiq autentifikasiya vasitələrindən istifadə etməklə elektron informasiya sisteminə daxil olaraq və ya fiziki olaraq xidmət göstərilmə yerlərinə müraciət etməklə özü barəsində sistemdə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinə dair məlumatları əldə edir. Şəxsiyyət vəsiqəsinə əsasən şəxsin e-sosial.az portalındakı məlumatları nəzərdən keçirilir

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

- "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 71-72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan 30

gün müddətində yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

- MEİS
- “e-sosial” internet portalı

**Xidmətin elektronlaşma səviyyəsi:**

- Tam elektronlaşdırılıb

**Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

- Avtomatlaşdırılıb